*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 14-26* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.14*

**NƏZƏRİYYƏNİN TƏDQİQİ**

# Naxçıvanda ədəbiyyat nəzəriyyəsinin inkişaf mərhələləri və əsas istiqamətləri

**Tahirə Məmməd**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: tahire.mammed@yahoo.com

**Annotasiya.** Məqalədə Naxçıvanda yerinə yetirilən ədəbi-nəzəri tədqiqatların Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafına verdiyi töhfələr araşdırılır. Bu qədim türk yurdunda, klassik ədəbiyyat dövründə bütün Şərq ölkələrində olduğu kimi bəlağət, poetika normalarına divanların dibaçəsində yer verildiyi göstərilir, bəlağətə aid ayrıca əsərlərin də yazılma ehtimalı qeyd olunur. Yeni tipli nəzəriyyə, Şərq-Qərb normalarını bir araya gətirməklə ədəbiyyatın özünəxas qayda-qanunlarını, nəzəri kateqoriyalarını, təhlil üsullarını sistemləşdirmək cəhdləri isə XX əsrin əvvəlləri ədəbiyyat dərslərindən başlayır. Bu sahədə Hüseyn Cavidin xidmətləri qeyd olunur.
Naxçıvanda ali təhsil sisteminin meydana gəlməsi, AMEA-nın Naxçıvan Bölməsinin fəaliyyəti, digər elm sahələri kimi ədəbiyyat nəzəriyyəsinin də inkişafına şərait yaratdı və onun müxtəlif istiqamətlərini formalaşdırdı. Akademik İsa Həbibbəyli məktəbi burada yarandı və onun davamçıları kimi yeni nəsil yetişdi. Yeni nəsil nəzəriyyəçiləri içərisində prof. Hüseyn Həşimli xüsusilə fərqləndi.
Naxçıvanda ədəbiyyat nəzəriyyəçiliyində əyalətçilik, ucqarlıq yoxdur. Burada bir çox fundamental tədqiqatların əsası qoyulmuş və yeni tədqiqatlar üçün stimullar verilmişdir.
**Açar sözlər:** nəzəriyyə, Naxçıvan elmi mühiti, İsa Həbibbəyli, universitet, Hüseyn Həşimli

**Məqalə tarixçəsi:** göndərilib – 02.03.2024; qəbul edilib – 16.03.2024

# The main directions and development stages of theory of literature in Nakhchivan

**Tahira Mammad**
Doctor of Philological sciences, Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: tahire.mammed@yahoo.com

**Abstract.** The article investigates the contributions of literary and theoretical research conducted in Nakhchivan to Azerbaijani literary studies. It mentions that the standards of rhetoric and poetics are placed in the dibach (introduction) of diwans (collections of poems) in this ancient Turkic region, as

in all Eastern nations during the classical period. It highlights that special works on rhetoric could be written. Beginning with literature lessons in the early 20th century, efforts were made to systematize specific rules, theoretical classifications, and analytical methods by combining a new type of theory with East-West norms. In this context, Husein Javid's contributions are particularly noted.
The development of the higher education system in Nakhchivan, the activities of the Nakhchivan Branch of ANAS, and other scientific advancements paved the way for the growth of literary theory and shaped its various directions. The Isa Habibbayli School was established here, and a new generation of scholars emerged as his successors. Professor Husein Hashimli emerged as a prominent theorist among this new generation. There is no provincialism or remoteness in the literary theory of Nakhchivan. Several fundamental investigations have been conducted, and incentives for new research have been provided.
**Keywords:** theory, Nakhchivan scientific environment, Isa Habibbayli, university, Husein Hashimli

**Article history:** received – 02.03.2024; accepted − 16.03.2024

## Giriş / *Introduction*

Azərbaycanın digər ədəbi mühitlərində olduğu kimi, Naxçıvanda da klassik Şərq bəlağət qaydalarının öyrənilməsi ənənəvi şəkildə mövcud olmuşdur. Lakin yeni tipli ədəbiyyat nəzəriyyəsi ilə tanışlıq XX əsrin ilk onilliklərində ədəbiyyat dərslərinin tədrisində gerçəkləşmişdir. Azərbaycanda ilk ədəbiyyat nəzəriyyəsi dərsliyinin [28] müəliflərindən biri olan Hüseyn Cavidin Naxçıvan Rüşdiyyə məktəbində dərsliyin çapından əvvəl nəzəriyyədən dərs deməsi bunu sübut edir. Hüseyn Cavidin şagirdi Lətif Hüseynzadə yazır: "1918-ci ilin aprel ayının ortaları idi. ... Mən "Rüşdiyyə" məktəbinin 9-cu sinfində oxuyurdum. Bir gün məktəbimizin müdiri Xəlil ağa Hacılarov Hüseyn Cavidlə sinfimizə gəldi. Müdirimiz Hüseyn Cavidi bizə hörmətlə təqdim edib getdi...

Cavid əfəndi ilə bir qədər həsbi-hal etdikdən sonra "dərsimiz "Qəvaidi-ədəbiyyə" ("Ədəbiyyat nəzəriyyəsi") olacaqdır" – dedi" [1, s.127]. 1919-cu ildə çap olunan dərsliyin mövzuları Hüseyn Cavidin ədəbiyyat nəzəriyyəsinin tədrisində nələrə önəm verdiyini göstərir. Bu bizə belə bir qənaətə gəlməyə əsas verir ki, "Ədəbiyyat dərsləri" kitabının ilkin variantı elə o vaxtlar formalaşmışdır.

Naxçıvan elmi mühitində nəzəri tədqiqatların yeni mərhələsi Naxçıvan Dövlət Pedaqoji İnstitutu, hazırda Naxçıvan Dövlət Universiteti və AMEA Naxçıvan bölməsinin elmi kontingenti tərəfindən inkişaf etdirilmiş, araşdırmalar əsasında istiqamətlər formalaşmışdır.

## Əsas hissə / *Main part*

Naxçıvanda ədəbiyyatşünaslıq sahəsində araşdırılıb yerinə yetirilən elmi əsərlərin, demək olar ki, hər birində nəzəri problemlər qoyulmuşdur. Birbaşa ədəbiyyat nəzəriyyəsinin problemlərinə həsr olunmuş tədqiqatlar içərisində akademik İsa Həbibbəyli, professor Hüseyn Həşimli, professor Həmid Əliyev və f.ü.f.d. dos. Əbülfəz Əzimlinin əsərləri diqqəti daha çox cəlb edir.

Ədəbiyyat tarixinin nəzəri aspektləri və nəzəriyyənin ayrı-ayrı problemləri akademik İsa Həbibbəyli və onun yetirmələrinin yaradıcılığında əsas xətt kimi özünü göstərir. Bu mənada professor Hüseyn Həşimli akademikin ən layiqli davamçısı, özünün də çoxsaylı yetirmələri və ardıcılları olan böyük alimdir.

1973-cü ildə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna Ədəbiyyat nəzəriyyəsi ixtisası üzrə daxil olan İsa Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan

romantik lirikasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda fəlsəfə doktorluğu dissertasiyası üzərində apardığı tədqiqat əsasında çap olunan məqalə və məruzələri, elmi seminarlardakı çıxışlarının, demək olar ki, hər biri ədəbiyyat nəzəriyyəsi istiqamətindədir. 1975-ci ildə AEA aspirantlarının elmi konfransında "XX əsr Azərbaycan romantik lirikasında Füzuli ənənələri", 1979-cu ildə ADU-da Məhəmməd Hadinin 100 illiyinə həsr edilmiş konfransda "Hadi lirikasının sənətkarlıq xüsusiyyətləri" məruzələri, "Lirik şairin töhfələri" [14, s.25-27], "İlk nəğmə nümunələrimiz" [13, s.260-270], "Şeirimizdə ilk sonetlər" [18, s.14-15], "Poetik formalarda novatorluq" [16, s.68-77], "Mühit – şəxsiyyət və yaradıcılığın vəhdəti" [26, s.117-120] mövzularında çap olunan məqalələri alimin nəzəri maraq və tədqiqat vərdişlərinin formalaşdığı təməllərin nəzəriyyə istiqamətində atıldığını göstərir. İlk elmi axtarışlarını yekunlaşdırıb 1980-ci ildə "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda müdafiə etdiyi fəlsəfə doktorluğu dissertasiyası [12] həlli tapılan problemlərə görə mütəxəssislər tərəfindən çox yüksək dəyərləndirilmişdir.

İsa Həbibbəyli poetika problemləri, ədəbi-tarixi proses, ədəbi mühit, ədəbiyyat tarixinin dövrləşdirilməsi, ədəbiyyat və dövlətçilik münasibətlərində ədəbiyyatın funksiyası, ədəbi təsir kateqoriyasının üfüqlərinin yenidən müəyyənləşdirilməsi istiqamətində apardığı tədqiqatlar və irəli sürdüyü müddəalarla elmi fikrimizi xeyli zənginləşdirmişdir. Hazırda uğurla davam etdirdiyi elmi-təşkilati fəaliyyət platformasının bütün parametrləri ilk başlanğıcını yaradıcılığının Naxçıvan dövründən götürmüşdür.

Akademikin yaradıcılığında diqqəti cəlb edən əsas cəhətlərdən biri onun verdiyi müxtəlif tipli elmi təsnifatlardır. Nəzəri fikrin əsaslılığı, ümumiləşdirmə gücü və fraqmentallığı, elmi yekunu ən mükəmməl şəkildə klassifikasiylar da üzə çıxır. Eyni zamanda, alimdən cəsarət tələb edir; müəyyənləşdirilib üzərində dəqiqləşdirmə aparılan tip, şöbə, növ, sahə, istiqamət və s. kimi nəzəri problemlərin müddəaları birbaşa müzakirələrə və mübahisələrə yol açır, elmi dözümlülük və dayanıqlıq tələb edir.

İlk elmi məqalələrindən, fərqli münasibət və elmi nəticələr sərgiləyən alim, hələ birinci monoqrafiyasında üzərində tədqiqat apardığı mövzu ilə bağlı yeni tipli bir əsər meydana gətirərək özünün ədəbiyyatşünas kimi gələcəkdə görəcəyi işlərin perspektivlərini canlandırır. Yazıldığı dövrdən elmi nailiyyətə və istinad qaynağına çevrilən bu əsərdə – "Romantik lirikanın imkanları"nda [17] sistemli təsnifatlarla rastlaşırıq. "XX əsrin əvvəllərində yaranıb inkişaf edən romantik lirikanın mövzu dairəsi, ideya istiqaməti, lirik-poetik formaların inkişafı, məcazlar sistemi, üslubla bağlı məsələlər tədqiqatın əsas problemlərinin sistemini təşkil etmişdir" [17, s.7] yazan müəllif bu problemlərin ayrı-ayrılıqda özlərinin də təsnifatını aparır. Həmin təsnifatlarda diqqəti cəlb edən əsas cəhət isə alimin gətirdiyi yenilik və dəqiqləşmələrdir. Məsələn, "Romantik lirikanın mövzu dairəsi və ideya istiqaməti" fəslində istiqamətlərin tipoloji klassifikasiyası belə müəyyənləşdirilir: "1. Sosial-fəlsəfi lirika 2. Əxlaqi-tərbiyəvi, yaxud maarifçi lirika. 3.Aşiqanə məhəbbət lirikası" [17, s.13]. Diqqət edildikdə, hər bir ifadədə ədəbi mənzərəyə uyğun dəqiqləşmə özünü göstərir. Müəllifin əxlaqi-tərbiyəvi, yaxud da maaarifçi lirika, eləcə də aşiqanə və məhəbbət lirikasında ifadələri qoşalaşdırması təsadüfi deyil; çünki hər istiqamətdəki qoşalanmalar həm də fərqləndirmələrin göstəricisidir. Həmin eyniliklər və fərqliliklər isə tədqiqatda öz ifadəsini lazımi səviyyədə tapa bilir. Hər bir istiqamətə aid aparılan tədqiqatlar belə öz içərisindəki xətliliklərlə bir çox yeni müşahidə və münasibətləri əks etdirir. Məsələn, sosial lirikanın içərisində vətən lirikasının, romantik vətən lirikasının içində peyzaj lirikasının tutduğu yer müəyyənləşir; daha sonra Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq həm də şəhər peyzajından bəhs olunur. Baxmayaraq ki, hələ XX əsr romantik Azərbaycan poeziyasından əvvəl klassik şeirdə şəhər peyzajının əsas olduğu şəhrəngiz şeirlər var idi, ilk dəfə ədəbi-nəzəri fikrimizdə şəhər peyzajından İsa Həbibbəyli söz açdı.

"Poetik formalarda novatorluq" fəslində ədəbi mühitin faktlarına uyğun aparılan təsnifatda yenə də çoxlu faktlara söykənən yeniliklərlə rastlaşırıq. Burada hər bir, xüsusən də "Yeni poetik

formalar" istiqamətini əsaslandırmaq üçün müəllifin nə qədər zəngin bədii faktlarla işləməsinin, geniş nəzəri biliklə yeni elmi mülahizə və müddəalarla çıxış etməsinin bir daha şahidi oluruq.

Müəllif yalnız təsnifat verməklə kifayətlənmir, həm də ədəbiyyatşünaslığın özündə yeni təsnifatlara yol açır. Bir problemə müraciət edərkən onun əlaqədə, sistemdə olduğu o qədər şaxələri üzə çıxarır ki, mövcud mənzərənin heç də indiyədək qəbul edilmiş vəziyyətdə olmadığının şahidi oluruq. Ədəbiyyatımızda əsrlərcə davam edən romantik ənənələrin romantizm ədəbi cərəyanında Qərb texnologiyası ilə sintezləşərək yeni mərhələdə də inkişafa zəmin verdiyi müddəası ilə çıxış edən alim araşdırmaya cəlb etdiyi mətnlərlə yeniliklərin dolğun mənzərəsini yaradır. Lakin burada da yeni baxış sərgiləyərək, ortaya fərqli, indiyə qədər görmə sahəsindən uzaqda qalan mənzərə qoyur və artıq tədqiqatçıları həmin sahəyə dəvət edir. Nümunə olaraq bir problemin işıqlanmasına diqqət edək, yeni romantik ədəbiyyatın məzmununda aparıcı yeri olan vətən, hürriyyət, millət eşqindən, şairlərin bu hissləri oyatmaq, tərbiyə etmək, şüurlara yerləşdirmək cəhdindən bəhs edərkən istər-istəməz həm maarifçiliyin, həm də romantizmin yeni tipologiyasına ehtiyac olması qənaətini formalaşdırır; Şərq romantikası və romantizm vəhdəti prinsipi ilə çıxış edərkən də axtarış və sistemləşdirmələrə yol açır; Qərbdən gələn poetik formaların qazandığı milli və fərdi keyfiyyətlərdən söz açdıqda milli zəminin unudulmaması şərti şüar kimi yox, fakt halında qarşımıza çıxır və burada da sintezləşmiş elementlər sistemləşdirilərək nisbi dominantlıq probleminə aydınlıq gətirmək istiqamətində yeni araşdırmalara yol açılır. Bununla, hələ ilk kitabdan İsa Həbibbəylinin nəzəri görüşlərinin yaradıcılıq gücünə, üfüqaçma potensialına malik olduğunu görürük. Bu isə bir daha yeni bir ədəbiyyatşünaslıq məktəbinin üfüqdə görünməsindən xəbər verir.

Alimin "Ədəbiyyat nəzəriyyəsi: metodiki göstəriş"i [10] bu sahədə perspektivlərinin proqramı, təsnifatlar sxemidir. Kitabda ədəbiyyat nəzəriyyəsinin ədəbiyyatşünaslıqda yeri, onun əlaqədar olduğu elm sahələri, antik dövrdə təkamülü, Avropa ədəbi-nəzəri fikrindən seçilmiş nümunələr, klassik dövrdən başlayaraq Azərbaycan yazıçılarının söz və sənət haqqında söylədikləri, bədii yaradıcılığın spesifikası, nəzm və nəsr texnikası, ədəbi metod, cərəyan və üslub haqqında izahedici məlumatlar yer alır. "Ədəbiyyat nəzəriyyəsi"ndə İsa Həbibbəylinin ədəbiyyatın müxtəlif anlayışlarına dair tərifləri və bölgüləri verilmişdir. Bu, yazılması nəzərdə tutulan ədəbiyyat nəzəriyyəsi dərsliyinin modelidir.

Akademikin yaradıcılığında təkamül keçirən problemlərdən biri ədəbiyyat tarixinin dövrləşdirilməsidir. Ədəbiyyat tarixinin dövrləşdirilməsində nə qədər zəngin faktları tədqiqata cəlb etməyin gərəkliliyini İsa Həbibbəyli hələ ilk elmi əsərlərində nümayiş etdirmişdi; ədəbi mühit, ədəbi cərəyan, üslub, janr əlvanlığı və dinamikliyi, ədəbi təsir, ədəbiyyat və mədəniyyət, ədəbiyyat və tarix, ədəbiyyat və dil, ədəbiyyat və fərqli elm sahələri, eləcə də digər amillər və s. diqqətlə araşdırılmadan ədəbiyyat tarixinin dövrləşdirilməsində düzgün elmi nəticənin əldə edilməsi imkansızdır.

Nəzəri konsepsiyanın, ilkin şərtlərin müəyyənləşməsi ilə ədəbiyyat tarixinin dövrləşdirilməsi kimi böyük problemin həllinə başlamaq olar; burada ədəbiyyat tarixinin müxtəlif şöbələri əlaqədə və vəhdətdə iştirak edir. Dövrləşdirmədə müəyyənləşdirilən mərhələlər Azərbaycan ədəbiyyatının qədimliyini, mədəniyyət sivilizasiyalarının formalaşmasında rolunu, sivilizasiyalardan bəhrələnməsini, dünya ədəbiyyatları içərisində özünəməxsusluğunu, dinamikliyini, canlılığını, zənginliyini sübut edir.

Dövrləşdirmənin ilk plan və təməlləri akademikin Naxçıvandakı araşdırmalarında müəyyənləşdirilmişdir. "Ədəbiyyatşünaslıq elminin şöbələrinə yenidən baxış" məqaləsində hiss olunur ki, İsa müəllim artıq dövrləşdirmə problemini araşdırmağa başlamışdır; şöbələrin funksiyasından söz açarkən onların dövrləşmə konsepsiyasının hazırlanmasında iştirakı məsələsini də qeyd etmişdir. "Ədəbiyyatın dövrləri, mərhələləri, hər mərhələnin təmsilçiləri, ədəbiyyat tarixində yeri və əhəmiyyəti kimi məsələlər də ədəbiyyatşünaslıq elminin bu şöbəsinin tədqiqat obyektinə daxildir" [9,

s.474]. "... ədəbiyyat tarixinin dövrləşdirilməsi, ayrı-ayrı inkişaf mərhələlərinin özünəməxsusluqları da müəyyən olunarkən ədəbiyyat nəzəriyyəsinin prinsiplərindən çıxış edilməlidir" [9, s.476].

Ədəbiyyat tarixinin dövrləşdirilməsi bir yazıçının yaradıcılığı, bir mərhələnin xüsusiyyətləri üzərində aparılan sistemli araşdırma və təsnifat prosesindən keçməyi tələb edir. İsa müəllim bu yolu Cəlil Məmmədquluzadənin yaradıcılığı, xüsusən mühiti və müasirlərinə həsr etdiyi monoqrafiyası [8] və XX əsr Azərbaycan ədəbiyyatı üzərində apardığı geniş tədqiqatları ilə keçdi.

Tədqiqatçı araşdırdığı predmetə fərqli kontekstlərdən nəzər salır. Ədəbi mühit anlayışına nəzəri kateqoriya kimi yaxınlaşan alim, mühit şərtlərini, aparıcı təmsilçiləri dövrün fərqli aspektlərdən araşdırılan xarakteristikası ilə vəhdətdə təqdim edir. Mərkəzi fiqur kimi götürdüyü Cəlil Məmmədquluzadənin dünyagörüşünün və yaradıcılığının formalaşmasına təsir edə bilən amilləri, yazıçının özünün fəlsəfəsini, mövqeyini, ideya və ideologiyasını, mühit və yazıçı, müasirlər arasında qarşılıqlı əlaqələrin kompleks proqramını təqdim edən alim yenə də ədəbiyyat nəzəriyyəsi üçün əhəmiyyətli olan bir sıra prinsiplərin müəyyənləşməsinə nail olur. Bu tədqiqatla İsa müəllim ədəbiyyat tarixinin mirzəcəlilşünası, nəzəriyyənin mühitşünası kimi tanındı, ədəbi mühitin tədqiqat modelini formalaşdırdı. Ədəbiyyatşünaslığımızda ondan sonra Cəlil Məmmədquluzadədən və ədəbi mühitdən yazan hər bir tədqiqatçı araşdırmaya İsa Həbibbəyli prinsiplərinin təyin etdiyi trayektoriyadan başladı.

İsa müəllim elmdə dəqiqləşdirməni sevən və normativləri düşünərək qəbul edən, onların sərhədlərindəki dinamika və dəyişmələri müşahidə edib göstərə bilən alimlərdəndir. Bu onun bütün yaradıcılığında, eləcə də birbaşa nəzəriyyə problemlərinə həsr olunmuş "Ədəbiyyatın tərifi", "Ədəbiyyatşünaslıq elminin şöbələrinə yenidən baxış", "Satira ədəbi növ kimi", "Kiçik hekayə janrı novella", "Dialoq haqqında monoloq", eləcə də himn, marş, sonet haqqında məqalələrində də özünü göstərir. Bu məqalələrdə məlum tərif, tezis, müddəa və məlumatlar, elmi informasiya yenidən nəzərdən keçirilir və dəyərləndirilir.

"Ədəbiyyatın tərifi" auditoriyada tələbələrə müəllim izahatı kimi başlayır, tədricən ədəbiyyatın funksiya və mahiyyətini ümumiləşdirən tədqiqata çevrilir. İsa müəllim təkcə bu məqaləsində qoyulan problemdə yox, bütün fəaliyyətində auditoriya və yaradıcılığı əlaqələndirir. Ona görə tədqiqatlarının nəzəri-praktiki əhəmiyyətində məhsuldarlığa nail olur. Tələbəsi olduğum üçün deyə bilərəm ki, hər zaman yeniliklərlə auditoriyaya daxil olduğu üçün tələbələrdə elmi axtarışa və yeniliyə güclü maraq oyada bilirdi. İlk baxışda normativ sədləri müəyyənləşdirilmiş və qəbul edilmiş anlayışları, tərifləri, təsnifatları əlavə və dəqiqləşdirmələrlə tələbələrə təqdim etmə, mübahisəli situasiya yaradıb problemin aktuallığına diqqət yönəltmə cəhdi müəllimin psixoloji təsir imkanlarını artırmaqla bərabər, eyni zamanda, tələbələrin yaradıcı təfəkkürünə təkan verən başlıca amil kimi özünü göstərir. Biz, demək olar ki, hər dərsdə müəllimimizin bu cür elmi-pedaqoji fəaliyyətinin şahidi olurduq.

"Ədəbiyyatın tərifi"ndə anlayışın izahı üçün klassik Şərq ədəbiyyatı mütəfəkkirlərinin, Qədim Yunan və orta əsrlər Qərb, XIX əsr Rus və Sovet dövrü Azərbaycan nəzəriyyəçilərinin görüşlərini tarixi-müqayisəli aspektdə araşdırıb "ədəbiyyat nədir?" sualına verilən cavabda tamamlama işləri aparır.

"Ədəbiyyatşünaslıq elminin şöbələrinə yenidən baxış" məqaləsi ilə "Ədəbiyyatın tərifi" arasında sıx əlaqə var, daha doğrusu, ikinci, birincinin davamı təəssüratını yaradır. Birinci məqalədə olduğu kimi, burada da anlayışın formalaşması prosesinə tarixi aspektdə nəzər salınır, ədəbiyyatşünaslığın klassik bölgüsündən yeni şöbələrin ayrılıb inkişaf etməsi məsələsinə diqqət yönəldilir. "... ədəbiyyatşünaslıq elminin böyük sürətlə inkişaf etməsi, ... ədəbiyyatın özünün inkişafı bu elm sahəsinin şöbələrinin təsnifatına yenidən baxmağı tələb edir" [9, s.478] müddəası ilə çıxış edən alim klassik bölgülərin özünə də yenidən nəzər salır, hər bölgünün daxili komponentlərinə aydınlıq gətirən tezislərlə çıxış edir, bəzi bölmə və ayırma cəhdlərini (məsələn, poetikanı ədəbiyyat nəzəriyyəsindən ayırmağı), ədəbi tənqidi ədəbi növ kimi dəyərləndirməyi doğru saymır. Folklorşünaslığın yazılı ədə-

biyyatdan fərqli ədəbiyyat tipini öyrəndiyini, ədəbi əlaqələrin "müstəqil ədəbi siyasətin daşıyıcısına çevrildiyini" nəzərə alaraq onların yeni şöbə kimi qəbul olunmasını elmi cəhətdən əsaslı hesab edir. "Ədəbiyyatşünaslığın ədəbiyyat tarixi, ədəbi tənqid, ədəbiyyat nəzəriyyəsi kimi sınaqlardan çıxmış, özünü təsdiq etmiş şöbələri ilə bir sırada indi, yeni şəraitdə folklorşünaslığı və ədəbi əlaqələri də köməkçi deyil, müstəqil şöbə səviyyəsində qəbul etmək daha doğru olar" [9, s.479].

Akademik İsa Həbibbəylinin uzun illərdir üzərində durduğu və araşdırdığı problemlərdən biri də satiranın ədəbi növ kimi qəbul olunması məsələsidir. O, antik dövrdən başlayaraq satira haqda nəzəri görüşləri və bədii faktların dinamikasını nəzərə çatdırıb satiranın artıq ədəbi növə çevrilməsi müddəasını irəli sürür. Bunu XIX əsrdən satiranın dünya səviyyəsində yeni mərhələyə daxil olması, inkişafı və özünəməxsus janr sistemini formalaşdırması ilə əlaqələndirir. "XIX əsrin ikinci yarısından etibarən, həm rus ədəbiyyatında və Avropada, həm də Azərbaycanda satirik ədəbiyyat xüsusi bir canlanma ilə inkişafa başlamış, bu sahədə müxtəlif əsərlər meydana çıxmışdır. Xüsusən XX əsrin əvvəllərində satira özünün inkişafının zirvəsini fəth etmişdir. ... "Molla Nəsrəddin" ədəbi məktəbi Azərbaycan satirik ədəbiyyatının inkişafının xüsusi mərhələsini təşkil edir. Mollanəsrəddinçilər satiranı təkcə mövzu və ideyaca deyil, tamamilə yeni olan janrlarla da inkişaf etdirdilər" [9, s.484]. "Molla Nəsrəddin" həqiqətən ədəbiyyatın yeni janr və formalarla zənginləşməsində müstəsna rol oynayıb. Satiranın inkişafında roluna, xüsusən də janr strategiyasına görə jurnal unikal fəaliyyət nümayiş etdirmişdir. Satiranın ayrıca bir növ kimi qəbul olunması ideyasının stimullaşması da, çox güman ki, İsa müəllimin mollanəsrəddinçilərin yaradıcılığı üzərində apardığı həssas tədqiqatçılıq işindən qaynaqlanır.

İsa Həbibbəyli irəli sürdüyü müddəaları inam və qətiyyətlə yekunlaşdırır. "Bunu qəbul edib-etməyəcəyimizdən asılı olmayaraq, ədəbiyyatda satirik ədəbi növ artıq mövcuddur" [9, s.485].

İsa müəllimin nəzəri tədqiqatlarında janr və forma məsələsi də diqqətdə saxlanan problemlərdəndir. Hələ fəlsəfə doktorluğu dissertasiyasında romantik lirikanın Azərbaycan poeziyasına gətirdiyi janr və forma əlvanlığı da öyrənilmişdir.

XX əsrin başlanğıcında Azərbaycan ziyalıları və xüsusən mütəfəkkir yazıçılarımız milli tərəqqi uğrunda mübarizə aparırdılar. Bu mübarizənin tərkib hissəsində dünyaya inteqrasiya problemi də dayanırdı. Həmin inteqrasiyanı gerçəkləşdirməyin yollarından biri yeni ədəbiyyat texnologiyalarının, Qərb mənşəli janr və formaların, ədəbi cərəyanların milli ənənələrə uyğunlaşdırılaraq ədəbiyyatımıza gəlişində müşahidə olunur.

Romantiklər Avropa mənşəli janrları poeziyamıza gətirməklə müasirləşmə və yeniləşmə imkanlarını artırırdılar. XIX əsr Azərbaycan ədəbiyyatında dramatik və epik növdə çox sayda yeni janrların ədəbiyyatımıza daxil olmasına baxmayaraq, poeziyada bu proses gerçəkləşməmişdi; yalnız ənənəvi janrlarda əsasən məzmunla bağlı funksional dəyişmələr baş vermişdi. Struktur dəyişikliklər isə çox azdır. Tam olaraq poeziyada janr yenilənməsi Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərində yaşandı. Bu sahədə həm realistlər, həm də romantiklər fəal rol oynayırdı. İsa müəllimin "XX əsrin əvvəlləri Azərbaycan romantik şeirində sonet janrı", "Azərbaycan şeirində himn və marş" məqalələri göstərilən problemə aydınlıq gətirilməsi məqsədilə yazılmışdır.

Sonetdən bəhs edən məqalədə H.Cavid və A.Şaiqin poeziyasını problemlə əlaqədar araşdıran alim böyük mütəfəkkirlərin janrı mexaniki təkrar etmədiklərini, ona "Azərbaycan şeirinin nəfəsini də əlavə etməyi bacarmalarını" [9, s.491] müsbət hal kimi qiymətləndirir.

Himn və marşın Azərbaycan ədəbiyyatına gəlişini tarixi poetika mövqeyindən tədqiq edən İsa Həbibbəyli onların tipoloji müqayisəsini aparır və özünəməxsusluqlarının nəzərə alınmasının vacibliyini vurğulayır. Məlumdur ki, ədəbiyyat nəzəriyyələrində bu iki anlayış çox vaxt birlikdə götürülür və qarışdırılır. İsa müəllim janrların yaranma və inkişaf yolu, funksiyasını müqayisə edir və doğru elmi qənaətə gəlir: "Marş və himnə eynimənalı sinonim sözlər kimi yanaşmaq yanlış meyildir. Himnlər daha çox ümumi xarakter daşıyır, marşlar isə konkret sahəni əhatə edir. Təntənəli üslubda yazılan, ictimai həyatın ayrı-ayrı sahələrinə aid olan, həyəcan və səfərbərlik ifadə edən şeir,

yaxud mahnıya marş deyilir. Əslində marşlar sahə himnləridir. Məsələn: əsgər marşı, məktəblilər marşı və s.” [9, s.495].

İsa müəllimin nəzəri mövzuları araşdırarkən problemə tarixi poetika istiqamətində yanaşması, ədəbiyyatımıza alınma janr kimi daxil olan ədəbi janrların milli və klassik Şərq ənənələrilə çulğalaşmış şəkildə təzahürünü üzə çıxarması doğru müəyyənləşdirilmiş yol kimi qiymətləndirilməlidir. Bu hal onun araşdırdığı bütün nəzəri problemlərdə, o cümlədən “Kiçik hekayə janrı novella” məqaləsində də xarakterik hal kimi özünü göstərir. Məlumdur ki, hekayə və novellanın sərhədlərinin müəyyənləşməsinə ədəbiyyatşünaslıqda bir o qədər də ciddi əhəmiyyət verilmir. İsa müəllim hekayə-novella münasibətlərinə aydınlıq gətirmək üçün nəzəri ədəbiyyatda olan fikir müxtəlifliyi haqda ümumi mənzərəni təqdim etdikdən sonra özünün tərəfdarı olduğu qənaəti vurğulayır: “... novella və hekayə bir-birinə yaxın olan janrlardır, lakin eyni deyildir” [9, s.508]. O, novellanın özünəməxsusluqlarından biri kimi, nəzəriyyədə qəbul olunan “gözlənilməz sonluq” prinsipini klassik ədəbiyyatımızda formalaşan strukturlarda, Nizami Gəncəvinin “Sevgili yar” qəzəlində və hekayətlərində araşdırır və uyğun paralellər müəyyənləşdirir. Beləliklə də, XX əsrdə yeni janr kimi ədəbiyyatımızda özünü göstərən novella janr yaddaş qatında milli təbəqəni üzə çıxarır.

İsa müəllimin araşdırdığı nəzəri mövzular içərisində ədəbi və elmi məktəblərin ayrıca yeri var. O, akademik Məmməd Cəfər Cəfərovun Azərbaycan ədəbiyyat nəzəriyyəsində məktəb yaratması ideyasını irəli sürmüş və bu problem üzərinə dəfələrlə qayıtmışdır. İsa Həbibbəyli Məmməd Cəfər Cəfərovu həm tədqiqatlarına, həm də yetişdirdiyi kadrlara görə elmi məktəb qurucusu hesab edir. İsa müəllimin də qeyd etdiyi kimi, onun fəaliyyəti elmi məktəb quruculuğundan daha genişdir, çünki Azərbaycanda ədəbiyyat nəzəriyyəsinin bir elm sahəsi kimi istiqamət və mövzularının sistemləşdirilməsi, peşəkar kadr bazasının yaradılması Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. Azərbaycan romantizmini beynəlxalq səviyyədə özünəməxsusluğu olan bir tip kimi müəyyənləşdirib, ədəbi cərəyanların tədqiqinin milli mexanizmini hazırlamaq onun elmi əsasını qoyduğu məktəbin əsas fəaliyyət istiqamətini təşkil edir. “Ədəbiyyat nəzəriyyəsinin aparıcı istiqamətlərindən, köklü məsələlərindən biri olan romantizm ədəbi cərəyanının tarixi müqəddəratı, Azərbaycan romantizminin poetikası və estetikası akademik Məmməd Cəfər Cəfərovun elmi fəaliyyətində mərkəzi yerdə dayanır. O, Azərbaycan romantizmşünaslığının banisidir” [2, s,13].

Məmməd Cəfər elmi məktəbinin ardınca Məmmədhüseyn Təhmasib, Yaşar Qarayev məktəblərinin mövcudluğu və özünəməxsusluqları üzərində araşdırmalar aparır və məqalələr yazır.

Tədqiq etdiyi ədəbi məktəblərin mərkəzində “Molla Nəsrəddin” dayanır. O, demək olar ki, əksər tədqiqatlarında bu ədəbi məktəbə xas hər hansı bir özünəməxsusluğu müəyyənləşdirib üzə çıxarır və problemə dəfələrlə qayıdır, hər qayıdış bir tapıntı və yeniliklə müşahidə olunur.

“Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular” məqaləsi də ədəbi məktəb, ədəbi irs və varislik problemlərinə olan nəzəri baxışla maraq doğurur.

Əksər oxucuları belə bir sual düşündürür ki, Səməd Vurğunun oğulları, yaradıcılıqları ilə ədəbiyyatımızda möhtəşəm yer qazanmış qələm sahibləri, görəsən niyə atalarının yolunu davam etdirmədilər, heca vəznli vətənpərvərlik şeirləri, tərənnüm notlu əsərlər yazmadılar? İsa müəllim bu sualların cavabını nəzəri aspektdə verir; ata-oğul yaradıcılığı arasında tipoloji, genetik müqayisə aparır. “Ata ocağından” götürülənlər və övlad qazancına aid olanların mətn məkanını təyin edən xətləri göstərir.

İsa müəllim Səməd Vurğun məktəbinin ədəbiyyatımızda dörd istiqamətdə davamını, təmsilçilərini göstərib, oğulları dördüncüyə aid edir. Bu istiqamətin novatorluğunun, fərqliliyinin gücü əlaqənin müşahidəsini çətinləşdirir. Səmədoğulların təmsil olunduğu qrupu tədqiqatçı belə səciyyələndirir: “Xalq şairi Səməd Vurğun irsindən novatorcasına faydalanaraq yeni ədəbiyyat yaradan sənətkarlar. Belə ədiblər üçün Səməd Vurğun şeirinin vəzn və qafiyə sistemi, mövzu və ideyalar aləmi, təsvir və ifadə vasitələri əsas kimi qəbul olunmadı. Bu tip sənətkarlara Səməd Vurğunun ədəbiyyatda gəlib çatdığı, lakin bir çox səbəbdən inkişaf etdirə bilmədiyi məqamı

müəyyən edib, həmin nöqtədən başlayaraq yaradıcılıq yolunu yeni müstəvidə davam etdirən yazıçı və şairləri aid etmək lazım gəlir" [9, s.358].

İsa Həbibbəylinin ədəbiyyat nəzəriyyəçisi kimi fəaliyyətinin əsas istiqamətlərindən birini ədəbiyyat və dövlətçilik problemi sahəsində apardığı araşdırmalar və irəli sürdüyü nəzəri müddəalar təşkil edir. Problemə müstəqil dövlətçilik, milli şüur və milli mədəniyyət, azərbaycançılıq nöqteyi-nəzərindən yanaşan akademik bu məsələni ya ayrıca tədqiqat predmetinə çevirmiş və yaxud fərqli araşdırmalarında, çıxışlarında onu metodoloji prinsip kimi diqqət mərkəzində saxlayaraq inkişaf etdirmişdir [11].

Dövlətçilikdə monolit birlik və xalq-rəhbər ünsiyyəti, demokratik münasibətlər haqda fikirlərinin ifadəsində ədəbiyyat nəzəriyyəsinin terminologiya və struktur modellərindən ustalıqla istifadə edir. Bu cür istifadələr ədəbiyyatın, ədəbiyyatşünaslığın strateji-praktiki əhəmiyyətini, təsir gücünü göstərən nümunə kimi maraq doğurur. Akademikin "Dialoq haqqında monoloq" [9, s.509-5014] məqaləsi bu qəbildəndir.

İsa Həbibbəyli passiv nəzəriyyəçi deyil. O, proqramlaşdırılmış şəkildə fəaliyyət mexanizmini də müəyyənləşdirir; tədqiqat planları, elmi əsərlər, çıxışlar, məruzələr və nəhayət Naxçıvanda hazırlayıb yetişdirdiyi kadrlar, onların yetirmələri... Bütün bunlar İsa müəllimin nəzəriyyə və praktikanı yüksək səviyyədə əlaqələndirə bilən ədəbiyyatşünas obrazının cizgiləridir.

Elmi-pedaqoji fəaliyyəti Naxçıvanda gerçəkləşən, lakin ədəbiyyatşünaslığımıza xidməti ilə doğma məkanın hüdudlarını aşan alimlərimizdən biri də professor Hüseyn Həşimlidir. Alimin ədəbiyyat nəzəriyyəsi sahəsində tədqiqatları, ədəbi cərəyanlar; poetik forma, janr; nəzəriyyə tarixi kimi problemləri əhatə edir.

O, "Azərbaycan ədəbiyyatında sentimentalizm" [27] mövzusunda tədqiqata başlayarkən ədəbiyyatşünaslığımızda həmin cərəyanın mövcud olub-olmaması mübahisəli məsələ idi. Hətta ciddi arqumentlər irəli sürən mübahisə tərəfləri belə yaranmamışdı. Sentimentalizmin ədəbiyyatımızda mövcudluğu haqda bir-iki müəllifin söylədiyi fikirlər ümumilikdə bir-iki səhifəni keçmirdi. Lakin Hüseyn müəllim sentimentalizmi Qərbdə öz təsdiqini tapmış fəlsəfi-estetik hadisə kimi dəyərləndirməklə bərabər, milli ədəbiyyat ənənələrimizlə sintezləşməsi, Şərq qaynaqları, üslub rəngarəngliyi, əsas təmsilçilərinin müəyyənləşdirilməsi kimi problemləri əhatə edən çoxplanlı bir əsər yazıb təqdim etdi. Aşağıda adları göstərilən fəsillər tədqiqatın aspektləri haqda müəyyən təsəvvür yarada bilər:

- Azərbaycan sentimentalizminin qaynaqları və təşəkkülü ərəfəsi;
- Azərbaycan ədəbiyyatında sentimentalizmin təşəkkülü və inkişaf problemləri;
- Azərbaycan sentimentalizminin poetikası.

Dissertasiya, təkcə sentimentalizmin öyrənilməsi ilə məhdudlaşmır, eyni zamanda, Azərbaycan ədəbiyyatında hər hansı cərəyanın varlığını sübut etmək üçün diqqət edilməli cəhətlərə aydınlıq gətirilir; cərəyanlarla bağlı yazılacaq yeni tədqiqatların modelini müəyyənləşdirir. Fəsillərin ayrıldığı yarımbaşlıqlarda ədəbi cərəyanın ilkin elementlərinin qaynaqlarda müəyyənləşdirilməsi, təşəkkülünü şərtləndirən amillər, təmsilçilərinin ədəbi görüşlərinin bədii və publisistik yaradıcılıqlarında əksi, nəsr, dramaturgiya, poeziyada təzahürü, ədəbi qəhrəman, üslub, janrlar kimi problemlər tədqiq olunur. Bu elmi əsərlə Hüseyn Həşimli təkcə sentimentalizmin Azərbaycan ədəbiyyatında varlığı məsələsini aydınlaşdırmadı, həm də o vaxta qədər ya adı məlum olmayan, ya da haqqında çox az məlumat verilən sənətkarların yaradıcılığı ilə bağlı informasiyaları arxiv araşdırmaları ilə təqdim edərək ədəbiyyatşünaslığımızı zənginləşdirdi.

Hüseyn müəllimin sentimentalizm haqqında monoqrafik tədqiqatı ilə tanışlıq insanda qəribə bir ovqat oyadır. Sentimentalizm üçün xarakterik olan hissiyyat, nisgil, ayrılıq elə bil bu cərəyana xas Azərbaycan yazıçılarının taleyinə yazılıb. Əksəriyyəti ədəbiyyat tarixindən uzaq qalmışdı. Professor Hüseyn Həşimli ədəbiyyat tarixində onlara haqq etdikləri yeri qazandırdı. Sentimentalistlərlə elmi yaradıcılığa başlayan Hüseyn Həşimli elə onların yaradıcılığı üzərində apardığı

tədqiqat, unudulmuşları ədəbi-elmi mühitə qovuşdurmaq üçün çalışmaları ilə bu dünyaya əlvida dedi. Sonuncu işləri də onlardan birinə, Ələkbər Qəribə həsr olunmuşdu. Ələkbər Qərib haqqında yazdığı monoqrafiyanı bitirməsinə [26] və onun əsərlərini toplayıb çapa hazırlamasına [29] baxmayaraq onların nəşrini görmək özünə nəsib olmadı.

Sentimentalizmə həsr olunmuş dissertasiya işi məhəlli xarakter daşımır, burada qaldırılan problemlər, ümumiyyətlə, nəzəriyyə üçün əhəmiyyətlidir. Cərəyanlar içərisində sentimentalizmin yeri və mövqeyi məsələsi nəzəriyyədə həllini tapmamışdır. Həmin səbəbdəndir ki, ədəbi cərəyanların təsnifatına aid bir çox qaynaqlarda sentimentalizmin adı çəkilmir. Onu müstəqil ədəbi cərəyan və ya romantizm öncəsi, preromantizm kimi dəyərləndirənlər də var. Məsələn, romantizmin klassizmdən ayrılma, keçid dövrünü Rene Vellek preromantizm kimi səciyyələndirir [30, s.320]. Hüseyn Həşimli sentimentalizmdən ayrıca bir cərəyan kimi bəhs edir, eyni zamanda onun romantizmlə kəsişdiyi məqamı da göstərir; onların metod, tip müstəvisində birləşdiyini göstərən müddəa ilə çıxış edir [27, s.13].

"Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar" elmlər doktorluğu dissertasiyası ədəbi-nəzəri fikir tariximizdə özünəməxsus yeri olan çox əhəmiyyətli elmi əsərdir.

Bir neçə monoqrafiyanın [21; 22; 24] yekunu kimi ərsəyə gələn "Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı" [19] tədqiqat əsəri, ilk növbədə, ədəbiyyat nəzəriyyəsinin əsas problemlərindən birinin konseptual öyrənilməsinə həsr olunmuşdur. Monoqrafiyada Avropa mənşəli lirik janrların ədəbiyyatımıza gəlişinin dinamikası, janrın yayılma prosesindəki sabitlik və dəyişkənlik çoxplanlı formada araşdırılır. Əsər XX əsrin başlanğıcı Azərbaycan poeziyasının zənginləşməsində Qərb şeir şəkillərinin yerini və rolunu müəyyənləşdirməklə məhdudlaşmır, həmin janrların poeziyamıza daxilolma yollarına, səbəblərinə, tarixinə, yeni mühitdə uğradığı dəyişikliklərə, kimlərin yaradıcılığında ilk nümunələrinin görünməsinə, yayılma arealına, ədəbi coğrafiyasına, təzə mühitin onlar üçün əlverişli olub-olmaması məsələlərinə elmi aydınlıq gətirir.

Hüseyn Həşimli janrları həm forma, həm də məzmun prinsiplərinə görə araşdırır. Bəziləri üçün formanın bir o qədər də mütləq olmadığını qeyd edir. O mənada forması sabitləşmiş janrların ədəbiyyatımızda milliləşməsi, ənənə ilə sintezləşməsi məsələsi daha ciddi problem kimi qarşıya çıxır. Tədqiqatçı onun da öhdəsindən gəlir və istər strukturda, istərsə də məzmun funksiyasında yaşanan dəyişmələri mərhələlər, cərəyanlar və müəlliflər üzrə sistemləşdirir. Hansısa bir janrın ədəbi məkanımıza daxil olmasından başlayaraq "ömür yolunu", hərəkət trayektoriyasını, normativ xüsusiyyətlərini dəyişmələrinin xarakterini diqqətlə izləyib göstərir. Bu zaman o, peşəkar nəzəriyyəçi kimi çıxış edir; fakt yığını yaratmır, vacib məqamları, əlamətləri toplayıb sistemləşdirir.

"Əli Məhzun və "Ədəbiyyata dair" monoqrafiyasında [23] XX əsrin əvvəllərinin ədəbi-nəzəri görüşləri, yeni dərslik yaratma cəhdləri üzərində tədqiqat aparmışdır. Bu əsər bir çox baxımdan xüsusi elmi əhəmiyyət daşıyır: XX əsrin əvvəlləri İrəvan mətbuatında ziyalıların fəaliyyəti haqda fikir formalaşdırır, ədəbi fikirdə klassik bəlağət ənənəsi ilə yeni nəzəriyyələrin birlikdə öyrənilməsi prosesində atılan ilk addımlara aydınlıq gətirir, Azərbaycanda nəzəri fikrin inkişaf mərhələlərinin öyrənilməsinə xidmət edir. İrəvanda nəşr olunan "Bürhani-həqiqət" jurnalının ayrı-ayrı nömrələrində nəzəriyyəyə dair ensiklopedik məlumat xarakterli məqalələri bir yerə toplayıb kitab halında çap etdirən Hüseyn müəllim, həmin məlumatların əlçatanlılığını, istifadə imkanlarını asanlaşdırmışdır.

Əli Məhzunun "Ədəbiyyata dair" silsiləsindən yazıb çap etdirdiyi məlumatlarda müasir nəzəriyyə üçün əhəmiyyətli olan çoxlu terminlər yer alıb. O, terminlərin bir qismi hazırkı dövrdə ya fərqli adlarla öyrənilir və ya onlar haqqında, demək olar ki, məlumat verilmir. Məsələn: Zəfi-təlif, təqid, qərabət, kisrəti-təkrar, tənafür, vüzuf, müftəhiyyət və s. Hazırda ədəbiyyat nəzəriyyəsində geniş dayanılan problemlərə də həmin topluda (onu Hüseyn Həşimli toplu halına gətirmişdir) rast gələ bilərik: ədəbiyyat nədir, üslub və növləri, məcaz və s. kimi.

Hüseyn müəllim daha çox XX əsr Azərbaycan ədəbiyyatı mütəxəssisi kimi tanınmasına baxmayaraq, Naxçıvan Dövlət Universitetində uzun müddət Orta əsrlər Azərbaycan ədəbiyyatı fənnini tədris etmişdir. O, həmin mərhələyə də məqalələr, "İzzəddin Həsənoğlunun ədəbi irsi", [25] "Azərbaycan dilində lirik poeziyanın inkişaf yolu (XIII əsr-XIV əsrin əvvəlləri)" [20] kimi monoqrafiyalar həsr etmişdir. İkinci monoqrafiya, adından da göründüyü kimi, nəzəri aspektdə yazılmış və poeziya tariximizdə yaşanan çox mühüm bir dövrün dinamikası izlənilmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanda yazıb yaradan alimlərimizdən biri – f.e.d., professor Həmid Əliyev isə (Arzulu) [3] tərcüməşünaslıq sahəsində tanınan nəzəriyyəçi alimdir. O, bədii əsərlərin tərcüməsi ilə bağlı çox ciddi nəzəri problemlərə – vəzn, ritmiklik, poetik-semantik xüsusiyyətlər və s. toxunmuş və əsaslı elmi müddəalarla çıxış etmişdir. Etiraf edək ki, çox az tədqiqatçı tərcümə nəzəriyyəsində belə mühüm problemləri araşdırmışdır.

Tərcümə nəzəriyyəçiliyi Azərbaycanda bir o qədər də çox inkişaf etməmişdir. Həmid müəllim bu sahənin inkişafına xidmət edən alimlər arasında xüsusi mövqeyə malikdir.

Tərcüməçiliyin nəzəri problemləri filologiyada dilçilik və ədəbiyyatşünaslığın tədqiqat məkanlarını bir-birinə yaxınlaşdırır, lakin eyniləşdirmir. Təəssüf ki, çox vaxt ədəbiyyatşünaslığın prinsipləri arxa plana keçirilir. Bədii ədəbiyyatın tərcüməsini tədqiq edib, onun problemləri ilə məşğul olan ədəbiyyat nəzəriyyəçisi, sözsüz ki, dili və dilçiliyin qanunlarını dərindən mənimsəməlidir. Ancaq ədəbiyyatşünaslıqdan da uzaq düşməməlidir. Həmid müəllim, linqivopoetikanın, eyni zamanda bədii tərcümənin qanunauyğunluqları istiqamətində apardığı tədqiqatlarda məhz ədəbiyyat nəzəriyyəçisi kimi çıxış edir.

Naxçıvan elmi mühitində nəzəri görüşləri ilə fərqlənən ədəbiyyatşünaslardan biri də f.ü.f.d., dos. Əbülfəz Əzimlidir. Onun "Cəlil Məmmədquluzadə nəsrində təhkiyyə poetikası" adlı tədqiqat işində mütəfəkkir ədibin yaradıcılığını səciyyələndirən yeni baxış müşahidə olunur. Ə.Əzimli Mirzə Cəlil mətnlərinin yeni oxunuşunu təqdim edir və əsərin girişində irəli sürdüyü müddəanı – "O, (Mirzə Cəlil-T.M.) ümumdünya ədəbi qanunları çərçivəsində hər şeydən əvvəl, Şərq, ümumən Qərb ədəbi üfüqlərində Böyük ədəbiyyatın yeni poetikasını yaratdı. Mirzə Cəlilin böyüklüyü onun poetikasının böyüklüyüdür" [5, s.5], tədqiqatında əsaslandırır. Tədqiqatçı C.Məmmədquluzadənin yaradıcılığını Şərq-Qərb kontekstində dəyərləndirməyə çalışır və onun yaradıcılığının poetik strukturunun qurulmasında Şərq ədəbi yaddaşının aparıcı yeri olması qənaətini müdafiə edir. Ə.Əzimli Mirzə Cəlil yaradıcılığını dünya ədəbiyyatı səviyyəsində yeni hadisə hesab etdiyindən onun dəyərləndirilməsi üçün yaradıcılıq faktından çıxış edərək yeni terminlər təklif edir. Bu mənada, "məzhəkə realizmi" maraqlı tapıntıdır. Bu, tənqidi realizmin Cəlil Məmmədquluzadə tipinə tədqiqatçının struktural baxışının görüntüsüdür. Ə.Əzimli Mirzə Cəlil obazlarını qruplaşdıranda da maraqlı bölgü təsnifatı qoyur: "Məzmun-xarakter baxımından Mirzə Cəlil obrazları iki tipdən ibarətdir: a) özü kimi görünənlər; b) özü kimi görünməyənlər. ... "Özü kimi" görünməyən və görünə bilməyən obrazların hamısı məzhəkə içərisindədir.

..."Özü kimi" görünməyən obrazlar maska geyiniblər; onlara elə gəlir ki, maskalı olduqlarını heç kəs bilmir. Bütün maskalar tragikomik hallardadır; mahiyyətcə onların həyatına faciə komediyadan yaxındır; lakin onlar üçün komediya faciələrdən daha cəlbedici idi" [5, s.11]. Bu tezis tədqiqatçının həssas müşahidəsinin elmi ifadəsi, məzhəkə poetikasının əsas açar nöqtəsi və Cəlil Məmmədquluzadə poetikasını öyrənmək üçün aydın seçilmiş alternativ baxış bucaqlarından biridir.

Ə.Əzimli yaradıcılıq psixologiyası baxımından da məzhəkənin xarakterik təyinatlarını cızır: müəllifin "öz halında olanlar"a rəğbəti və tragik məzmun. Tədqiqatçı məzhəkə realizmindən bəhs edərkən onu tənqidi realizmlə qarşı-qarşıya qoymur, əksinə Azərbaycan tənqidi realizminin əsas spesifik xüsusiyyətlərindən biri kimi dəyərləndirir. "Məzhəkə tragizmi Azərbaycan ədəbiyyatında tənqidi realizmin poetika, üslub, ideya strukturuna daxil olan əlamətdir" [5, s.12].

Bədii üsluba nəzəri, empirik aspektdən yanaşan tədqiqatçı burada poetika normativlərinin gerçəkləşməsi üsulları, yazıçı fərdiyyəti, janr müəyyənliyi, yaradıcılıq psixologiyası, poetikada

sabitlik və dinamiklik kimi mühüm problemlərə üslub vasitəsilə aydınlıq gətirməyin yollarını göstərir. Mirzə Cəlil yaradıcılığı ilə ədəbiyyatda yeniləşmə, yenilənmə mexanizminin fəlsəfəsini araşdıran tədqiqatçı cərəyanların yaranması ilə bağlı yeniliyi milli ənənədən uzaqlaşma kimi izah edənlərə prosesin mahiyyətini açaraq cavab verir. "Mirzə Cəlil ədəbiyyatı yeniləşdirdi: bu o demək deyildir ki, artıq ədəbiyyat köhnəlmişdi, xeyr, bu, ədəbiyyatın öz ənənəvi dairəsindən geniş meydana çıxmağı mənasında olan yeniliyi demək idi və ədəbiyyata yeni klassik sistematika verən yazıçı onu yüzillərin təsir dairəsindən çıxartdı və bədii yaradıcılığa mövzu, üslub, ideya, dil, söz novatorluğu gətirdi" [5, s.15].

Ə.Əzimli folklor və bədii nəsr təhkiyəsi, etnos təfəkkürü və yazıçı fərdiyyəti, xalq dili və fərdi üslub, klassik poeziya və şifahi yaradıcılıq, ədəbi və bədii dil qarşılaşdırılması müstəvisində Cəlil Məmmədquluzadə nəsrinin milli, eyni zamanda orijinal xarakterini açır, yazıçının yaradıcılığının müxtəlif sahələrində (nəsr, publisistika və dram) nümayiş etdirdiyi üslubi rəngarəngliyə diqqət yönəldir.

Maraqlı bir məqam da Ə.Əzimlinin obrazların psixoloji durumundan çox, əsərin strukturunun, təhkiyəsinin psixoloji vəziyyətindən bəhs etməsidir. O, əsərə canlı bir mexanizm kimi yanaşır və onun sahib olduğu, daşıdığı psixoloji xarakteristikadan bəhs edir. Yaradıcılıqda, nəsrdə bədii dramatizmdən bəhs edərkən maraqlı tezislə çıxış edir: "...nəsrdə bədii dramatizm poetika baxımından təhkiyənin psixoloji strukturu deməkdir. Bu psixoloji struktur Mirzə Cəlil nəsrində yeni poetik keyfiyyətlərdən təzahür etmişdir" [5, s.31].

Əbülfəz müəllim yaradıcılıqda dramatizmin müstəsna rolundan bəhs edərkən onun yazı texnikasına görə dəyişməsini də nəzərdən qaçırmır və Cəlil Məmmədquluzadənin nəsr təhkiyəsini səciyyələndirərkən nəsr dramatizmi (eyni zamanda nəsrdə komizm) prinsipini önə çəkir, təhkiyənin psixoloji halı ilə fərdin psixoloji durumunu əlaqələndirir, dramatizm yaradan amilləri, elementləri həmin xətt üzrə toplayaraq təqdim edir. Etirazın psixologiyası, yazıçı və obraz ittihamı, bunların ifadə üsullarını açdıqca, tədqiqatçı həm Mirzə Cəlil tənqidi realizminin özünəməxsusluqlarına aydınlıq gətirir; eyni zamanda, tənqidi realizm nəzəriyyəsini inkişaf etdirir.

"Təhkiyə poetikasında üslubi çevrilmələr"i izləyib, ondan ayrıca bəhs etmək də, Mirzə Cəlil yaradıcılığının bədiilik və həyatilik imkanlarını, plastikliyini, canlılığını, çevikliyini açmaq baxımından diqqətəlayiqdir.

Ə.Əzimlinin "Sokrat daymonizmi və Mirzə Cəlil realizmi" [4] əsəri də nəzəri yanaşmaları ilə orijinal xarakterli tədqiqatlardandır.

## Nəticə / *Conclusion*

Naxçıvanda ədəbiyyat nəzəriyyəsi sahəsində aparılan araşdırmaların mövzu, problem və istiqamətləri haqqında təqdim etdiyimiz məlumatlardan da göründüyü kimi, burada "əyalət", "ucqar", "təcrid" ab-havası yoxdur. Əksər elm sahələrində olduğu kimi, ədəbiyyat nəzəriyyəsində də ciddi axtarışlar və elmi tədqiqatlar yerinə yetirilmişdir.

## Ədəbiyyat / *References*


1. Bərabər yürüdük biz bu yollarda. Xatirələr, faktlar, sənədlər... Toplayan və tərtib edən Nazim Əkbərov. – Bakı: Çağ yayınları, 2007.
2. Cəfərov, M.C. Taleyi və sənəti. – Bakı: Elm və təhsil, 2009.
3. Əliyev, H. Alman klassik poeziyasının Azərbaycan dilinə tərcüməsinin nəzəri və praktiki prinsipləri (E.Lessinq, V.Qöte, F.Şiller, H.Hayne əsərlərinin tərcümə materialları əsasında). Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. – Naxçıvan, 2009.

4. Əzimli, Ə. Sokrat daymonizmi və Mirzə Cəlil realizmi. – Naxçıvan: Əcəmi, 2007.
5. Əzimli, Ə. Cəlil Məmmədquluzadə nəsrində təhkiyə poetikası (elmi-metodik vəsait). – Naxçıvan: Əcəmi, 2005.
6. Həbibbəyli, İ. Möhtəşəm Azərbaycançılıq dərsliyi. "Azərbaycan" qəzeti, 2006, 19 fevral.
7. Həbibbəyli, İ. Azərbaycançılıq məfkurəsi yollarında. "525-ci qəzet", 18 fevral 2006.
8. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. – Bakı: Azərnəşr, 1997.
9. Həbibbəyli, İ. Ədəbi-tarixi yaddaş və müasirlik. – Bakı: Nurlan, 2007.
10. Həbibbəyli, İ. Ədəbiyyat nəzəriyyəsi: metodiki göstəriş. – Bakı: Təhsil Nazirliyi Tədris-metodiki kabinetinin nəşri, 1985.
11. Həbibbəyli, İ. Heydər Əliyev Dövlətçilik təlimi və müasir dövr. – Naxçıvan: Əcəmi, 2013.
12. Həbibbəyli, İ. XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. – Bakı: Nizami adına Ədəbiyyat İnstitutu, 1980.
13. Həbibbəyli, İ. İlk nəğmə nümunələrimiz. Mədəni Maarif işi. 1977, № 10.
14. Həbibbəyli, İ. Lirik şairin töhfələri. Mədəni Maarif işi. 1975, № 4.
15. Həbibbəyli, İ. Mühit – şəxsiyyət və yaradıcılığın vəhdəti Xəbərlər. Ədəbiyyat, Dil və İncəsənət seriyası. Azərbaycan EA, 1982, № 3.
16. Həbibbəyli, İ. Poetik formalarda novatorluq. Xəbərlər. Ədəbiyyat, Dil və İncəsənət seriyası. Azərbaycan EA, 1979, № 1.
17. Həbibbəyli, İ. Romantik lirikanın imkanları. – Bakı: Yazıçı, 1984.
18. Həbibbəyli, İ. Şeirimizdə ilk sonetlər. – Bakı: Elm və həyat, 1977, № 10.
19. Həşimli, H. Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı. – Bakı: Elm və təhsil, 2009.
20. Həşimli, H. Azərbaycan dilində lirik poeziyanın inkişaf yolu (XIII əsr-XIV əsrin əvvəlləri). – Bakı: Elm və təhsil, 2017.
21. Həşimli, H. Azərbaycan mənsur şeirinin təşəkkülü. – Bakı: Nurlan, 2006.
22. Həşimli, H. Azərbaycan poeziyasında sonet və terset. – Bakı: Elm, 2003.
23. Həşimli, H. Əli Məhzun və "Ədəbiyyata dair" əsəri. – Bakı: Nurlan, 2009.
24. Həşimli, H. XX əsr Azərbaycan ədəbiyyatında yeni lirik janrlar. – Bakı: Elm, 2002.
25. Həşimli, H. İzzəddin Həsənoğlunun ədəbi irsi. – Bakı: Elm və təhsil, 2016.
26. Həşimli, H. Unudulmuş yazıçı Ələkbər Qərib Naxçıvanlı. – Bakı: Elm və təhsil, 2020.
27. Həşimov, H. Azərbaycan ədəbiyatında sentimentalizm. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. – Naxçıvan, 1998.
28. Hüseyn Cavid, Abdulla Şaiq. Ədəbiyyat dərsləri. – Bakı: Hökumət mətbəəsi, 1919.
29. Qərib, Ə. Naxçıvanlı. Haqq divanı (Toplayıb çapa hazırlayan, ön söz, izah və qeydlərin müəllifi Hüseyn Həşimli). – Bakı: Elm və təhsil, 2020.
30. Wellek, R. Edebiyat tarihinde romantizm kavramı. (Çeviren Sıddık Yeksel). Dinbilimleri Akademik Araştırma Dergisi II (2002), Sayı: 2.

## Этапы развития и основные направления теории литературы в Нахчыване

**Тахира Мамед**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: tahire.mammed@yahoo.com

**Резюме.** Статья исследует вклад литературных и теоретических исследований, проведенных в Нахчыване, в азербайджанское литературоведение. Упоминается, что стандарты риторики и поэтики размещаются в дебаче (введении) диванов (сборников стихов) в этом древнем тюркском регионе, как и во всех восточных народах в период классической литературы, и подчеркивается, что могли быть написаны специальные работы по риторике. Начиная с уроков литературы в начале XX века, были предприняты усилия по систематизации специфических правил, теоретических классификаций и аналитических методов, сочетая новый тип теории с нормами Востока и Запада. В этом контексте особенно отмечаются заслуги Гусейна Джавида.

Развитие системы высшего образования в Нахыване, деятельность Нахчыванского отделения НАНА и другие научные достижения проложили путь для роста литературной теории и сформировали её различные направления. Здесь была создана школа Исы Габиббейли, и новое поколение ученых выросло в качестве его преемников. Профессор Хусейн Хашими выделяется среди этого нового поколения теоретиков. В литературной теории Нахывана нет провинциализма или удаленности. Проведено несколько фундаментальных исследований, и предоставлены стимулы для новых исследований.

**Ключевые слова:** теория, научная среда Нахывана, Иса Габиббейли, университет, Гусейн Хашими